**BEYNƏLXALQ ƏLAQƏLƏR KOMİSSİYASI**

**İKİNCİ İCLAS**

**TÖVSİYƏ QƏRARI**

**"TÜRKDİLLİ DÖVLƏTLƏR ARASINDA MÜNASİBƏTLƏRİN İNKİŞAFINDA TÜRK ŞURASI, TÜRKPA VƏ TÜRKSOY-UN YERİ VƏ ROLU"**

1. Tarix, mədəniyyət və dil ümumiliyi əsasında əlaqələrin möhkəmləndirilməsi, əhəmiyyətli dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsi və Türkdilli dövlətlər arasında əlaqələrin inkişafı istiqamətində öz fəaliyyətlərlərini davam etdirən Türk Şurası, TÜRKPA və TÜRKSOY Türk dünyasında çoxtərəfli əməkdaşlığın genişləndirilməsi sahəsində mühüm rol oynayır.
2. TÜRKPA bir daha bildirir ki, onun əsas məqsədi üzv ölkələr arasında parlamentlərarası əməkdaşlığın keyfiyyətcə yeni mərhələsi olan parlament diplomatiyası vasitələrinin köməyi ilə dövlətlər arasında siyasi və iqtisadi dialoqun daha da inkişaf etdirilməsinə köməklik göstərmək, regional və global təhlükəsizliyin gücləndirilməsi məqsədi ilə əlverişli siyasi mühitin yaradılması üçün müxtəlif təşəbbüslər hazırlamaq və həyata keçirməkdir.
3. TÜRKPA Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində əks etdirilən beynəlxalq norma və prinsiplərinə, həmçinin, suveren bərabərliyi, ərazi bütövlüyü, dövlət sərhədlərinin pozulmazlığı, bir-birinin daxili işlərinə qarışmamaq, zor işlətməmək və zor işlədəcəyi ilə hədələməmək kimi beynəlxalq hüququn digər hamılıqla qəbul olunan norma və prinsiplərinə öz sadiqliyini bir daha təsdiq edir.

4. TÜRKPA hesab edir ki, Türkdilli ölkələrin əməkdaşlıq prosesinin bütün ölçüləri arasında institusional qarşılıqlı fəaliyyət beynəlxalq təşkilatlarla uzunmüddətli əlaqələrin həyata keçirilməsinə təkan verəcəkdir.
5. Komissiya üç təşkilat arasında əməkdaşlığın genişləndirilməsi məqsədilə Assambleyaya aşağıdakı tədbirlərin həyata keçirilməsini tövsiyyə edir:
   i) qarşılıqlı fəaliyyətə cəlb edilməsi vasitəsilə üç təşkilat arasında iqtisadi, sosial və mədəni sahələrdə birgə təşəbbüsləri *inkişaf etdirmək*;
   ii) Türkdilli dövlətlər arasında iqtisadi, siyasi və mədəni sahələrdə əməkdaşlıqla bağlı vahid yanaşmanın formalaşdırılması məqsədilə TÜRKPA, Türk Şurası və TÜRKSOY arasında çərçivə sazişinin hazırlanması imkanlarını *müzakirə etmək*;
   iii) məlumat və sənədlərin mübadiləsi yolu ilə üç təşkilatların katiblikləri arasında qarşılıqlı əlaqələri *intensivləşdirmək*;
   iv) Gələcəkdə Türk Şurası və TürkPA-nın fəaliyyətlərində iştirakları ilə Türkmənistan və Özbəkistanla əlaqələrin inkişaf etdirilməsi istiqamətində ümumi yanaşma yollarını *araşdırmaq*;
   v) iqtisadi, siyasi və mədəni sahələrdə əməkdaşlığın prioritet məsələləri üzrə beynəlxalq təşkilatlarla əməkdaşlığa dair üç təşkilat arasında əlaqələndirmə fəaliyyətini *təkmilləşdirmək*;
   vi) üzv ölkələrdə seçkilərin müşahidəsi üzrə Türk Şurası ilə birgə fəaliyyət imkanlarını *nəzərdən keçirmək*;
   vii) həm hökumət, həm də parlamenlər səviyyəsində xarici siyasət məsələləri üzrə üzv dövlətləri məsləhətləşmələr aparmağa *təşviq etmək*;
   viii) Türk Şurası tərəfindən təsis edilmiş yeni qurumları işlək vəziyyətə gətirmək və mövcud hökumətlərarası səylərə *dəstək vermək*;
   ix) 15-16 oktyabr 2012-ci il tarixində TÜRKPA Beynəlxalq Katibliyi tərəfindən İstanbulda təşkil olunmuş dövlətlərarası münasibətlərin inkişafı prosesində gənc liderlərin rolu forumunun davamı olaraq, 2013-cü ildə Azərbaycan Respublikasında beynəlxalq gənclər forumu *təşkil etmək.*